**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№385/5** **05 fevral 2026-cı il**

**Auditor xidmətinin göstərilməsi zamanı Azərbaycan Respublikasının qanunvericiliyinin və Beynəlxalq Audit Standartlarının tələblərinə riayət edilməməsinə görə intizam tədbirlərinin tətbiqi barədə**

Auditorlar Palatasının Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə və dövlət orqanları ilə iş idarəsinin rəisi Elnur İbrahimovun 2025-ci il 29 dekabr tarixli 10-1/3-1495/2025 nömrəli xidməti məktubu ilə "SERVİS+" MTK-nın əvvəlki təsisçi Tahirov Nazim Mirzalı oğlunun Auditorlar Palatasına ünvanlandığı 2025-ci il 08 dekabr tarixli şikayət ərizəsinə əsasən "ALİ GROUP CONSULTİNG" MMC-nin və onun auditoru Əliyev Nasir Asif oğlunun, "Professional Auditor Xidmətləri" MMC-nin və onun auditoru Əliyev Aftandil Adıgözəl oğlunun hərəkətlərinin araşdırılmasının nəticələrini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə və dövlət orqanları ilə iş idarəsinin rəisi Elnur İbrahimovun 2025-ci il 29 dekabr tarixli 10-1/3-1495/2025 nömrəli xidməti məktubu nəzərə alınsın (əlavə olunur).
2. Auditor xidməti göstərilərkən Beynəlxalq Audit Standartlarının və Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2021-ci il 12 iyul tarixli 332/1 nömrəli qərarı ilə təsdiq edilmiş ""Auditorun Şəxsi Kabineti" sistemində auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabatın, müqavilələrin və rəylərin qeydiyyatı haqqında Təlimat"ın tələblərinə riayət edilmədiyinə görə "ALİ GROUP CONSULTİNG" MMC-yə və onun auditoru Əliyev Nasir Asif oğluna şəxsi işlərinə qeyd edilməklə xəbərdarlıq elan edilsin.
3. "Professional Auditor Xidmətləri" MMC və onun auditoru Əliyev Aftandil Adıgözəl oğlu tərəfindən "SERVİS+" MTK-da auditor xidmətinin göstərilməsi zamanı "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü "Sərbəst auditorların və auditor təşkilatlarının vəzifələri aşağıdakılardan ibarətdir: sifarişçinin tələbi ilə aparılan audit zamanı əldə edilən məlumatı (məhkəmə orqanlarının, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində xarici ölkələrin səlahiyyətli orqanlarından daxil olan sorğuların (müraciətlərin) icrası məqsədilə qanunla müəyyən edilmiş hallarda vergi orqanlarının tələb etdiyi, habelə "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununa əsasən və maliyyə bazarlarını tənzimləyən digər qanunlara müvafiq olaraq Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim olunmalı məlumatlar istisna olmaqla)

məxfi saxlamaq" və 18-ci "Yoxlanılan müəssisədə şəxsi əmlak mənafeyi, yoxlanılan müəssisənin rəhbərliyindən hər hansı şəxslə birbaşa qohumluq əlaqəsi, müəssisənin təsisçisi, mülkiyyətçisi və ya səhmdarı olduqda, müəssisədə bundan əvvəl öz peşə fəaliyyəti ilə bağlı xidmətlər göstərdikdə auditorlara həmin müəssisələrdə audit aparmaq qadağandır" maddələrinin pozulmasına görə Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında" Əsasnamənin 7-ci maddəsinin 3-cü bəndinə (Qanunun 18-ci maddəsinə zidd olaraq fəaliyyət göstərdikdə) əsasən:

- "Professional Auditor Xidmətləri" MMC peşə fəaliyyətindən altı ay müddətinə kənarlaşdırılsın;

- "Professional Auditor Xidmətləri" MMC-nin auditoru Əliyev Aftandil Adıgözəl oğlu peşə fəaliyyətindən altı ay müddətinə kənarlaşdırılsın.

4. Auditin təşkili, hesabatlılıq və icra intizamına nəzarət idarəsinə (V.Cavadov) tapşırılsın ki, on gün müddətində bu qərarın 2-ci və 3-cü bəndlərindən irəli gələn məsələləri həll etsin.

5. Audit sistemində icra intizamına nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bir həftə müddətində bu qərarın yuxarıda adları qeyd edilən auditor təşkilatlarına və auditorlara göndərilməsi təmin edilsin.

6. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**